*Bioqrafiya seriyası: 1*

**Ədalət TAHİRZADƏ**

# HƏSƏN BƏY AĞAYEV
**(1875-1920)**
**(Qısa yaşam öygüsü)**

ÇAPAR

**Bakı - 2022**

بسم الله الرحمن الرحيم

Naşir:
**Yusif İLHAMOĞLU**

Dizayner:
**Xəyal DANYAL**

**Ədalət Şərif oğlu Tahirzadə.**
**Həsən bəy Ağayev (1875-1920).**
**(Qısa yaşam öygüsü).**
**Bakı: "Çapar" yayınları, 2022, 128 səh.**

Kitabda bütün həyatını xalqın ağ günə çıxmasına, müstəqil dövlət qurmasına həsr edərək sonda şəhid olmuş, şəxsiyyətcə peyğəmbərlər qədər məsum, təmiz, eyni zamanda uzaqgörən, tədbirli və mətin dövlət xadimimiz Həsən bəy Ağayevin həyatının ən mühüm dönəmləri ilk dəfə geniş işıqlandırılıb.

ISBN: 978-9952-5514-0-2

"Çapar" yayınları 26
Bioqrafiya seriyası 1
© Ədalət Tahirzadə, 2022
© "Çapar" yayınları, 2022

# İÇİNDƏKİLƏR

Yazardan bir neçə söz........................................ 5
Mirzəbala Məhəmmədzadə nə yazıb? ............. 9
Uşaqlıq və gəncliyi ............................................ 17
Ailəsi ..................................................................... 21
Həkim, jurnalist ................................................. 27
Güney Azərbaycanda ........................................ 45
Bakıda ................................................................... 49
Gəncədə ............................................................... 53
Fevral inqilabından sonra ................................. 61
Seymdə .................................................................. 67
Azərbaycan Milli Şurasında .............................. 87
Cümhuriyyət Parlamanının faktik sədri .......... 93
Kommunist terroru ........................................... 123



# YAZARDAN BİR NEÇƏ SÖZ

Allaha şükürlər olsun ki, xalqımız, ürəyində alovlanan gur yurd sevgisi ilə o qədər güclü, o qədər ərdəmlidir ki, düşmənlərimiz zaman-zaman bu alovu, bu odu söndürməyə qalxışsalar, həmin odun üstünü küllə örtməyi bacarsalar – yetişmiş ən dəyərli insanlarımızı kütləvi şəkildə qırsalar da az zaman içində külün altındakı od yenidən közərib, alov daha gur şölələnməyə başlayıb – meydana daha dəyərli, daha təpərli yeni-yeni nəsillər çıxıb! Tarixin çox da dərinliklərinə enməyə gərək yoxdur. 1804-cü ildən üzübəri təkcə ruslar on minlərcə seçmə soydaşımızı qırıb, ana yurdundan sürgün edib, millətimizin tarixini saxtalaşdırıb, onun mənəviyyatını, hətta adını əlindən almağa çalışıb, “mən Türkəm!” deyənin kökünü kəsməkçün əlindən gələni əsirgəməyib, onun qurduğu müstəqil dövləti yıxıb, elini-ulusunu, yurdunu, dövlətini sevən bütün qeyrətli övladlarımızı repressiya dəyirmanında üyüdüb. Buna baxmayaraq, Gəncəli Cavad xanların, İrəvanlı Məhəmməd xanların, Qubalı Şeyxəli xanların…yerinə meydana Məhəmmədəmin Rəsulzadələr, Əlimərdan bəy Topçubaşılar, Fətəli xan Xoyskilər, Nəsib bəy Yusifbəylilər, Həsən bəy Ağayevlər… çıxıb. Özlərini Vətən uğrunda şəhid etmiş belə oğullarımızın sayəsində Ata Ocağının alovu

indiyədək gur yanmaqda, "Azərbaycan" adlı müqəddəs dövlətimizin başı üzərində üçrəngli azadlıq bayrağı qürurla dalğalanmaqdadır!

Bu yazı bütün həyatını xalqın ağ günə çıxmasına, müstəqil dövlət qurmasına həsr edərək sonda şəhid olmuş, şəxsiyyətcə peyğəmbərlər qədər məsum, təmiz, eyni zamanda uzaqgörən, tədbirli və mətin dövlət xadimimiz Həsən bəy Ağayev haqqındadır. Həsən bəy istər xalq, istər dövlət tərəfindən indiyədək layiqincə qiymətləndirilməmiş, haqqı özünə tam qaytarılmamış böyüklərimizdəndir.

Həsən bəy haqqında ilk yazı 1928-ci ildə böyük Azərbaycan istiqlalçısı Mirzəbala Məhəmmədzadənin qələmindən mühacirət mətbuatında çıxıb.[1] Bu çox dəyərli yazıda H.b.Ağayev görkəmli dövlət adamı, siyasi xadim kimi tanıdılır.

İlk müstəqil Azərbaycan dövlətini qurmuş ulularımız haqqında Sovet dönəmindən başlayaraq ilk yazıların az qala hamısının müəllifi olmuş mərhum araşdırıcı Mövsüm Əliyevin məqaləsi[2] sayca ikinci olsa da Azərbaycanda birincidir. Bu yazı H.b.Ağayevin həyatı haqqında faktlarla o qədər zəngindir ki, aradan ötən 25 ildə Azərbaycanda və xaricdə Həsən bəylə bağlı çıxmış bütün yazıların müəllifləri ən

[1] Mirzəbala. Doktor Həsən bəy. – "Azəri Türk", 1 ağustos 1928, № 13, ss. 1-3.

[2] Mövsüm Əliyev. Həsən bəy Ağayev. – "Odlar yurdu" qəzeti, fevral 1989, № 3, s. 2.

mötəbər qaynaq kimi həmin məqalədən yararlanmağa məcbur olublar (əlbəttə, əksərində Mövsüm bəyin adı belə çəkilmədən!).

Professor Rafael Hüseynov özünün "Millətin zərrəsi" adlı dəyərli kitabında[3] Sevda xanım Pepinovanın ona verdiyi yazılı və şifahi materiallara söykənməklə Həsən bəy haqqında bir çox yeni faktları ortaya çıxarıb.

Tanınmış araşdırıcı Nəsiman Yaqublunun da H.b.Ağayevə həsr edilmiş ayrıca məqaləsi var.[4]

Ağırlığı daha çox arxiv bəlgələrinin üzərinə salmaqla bizim qələmə aldığımız bu yazı isə Həsən bəyin həyatının ən mühüm dönəmlərini ilk dəfə geniş işıqlandırmağa bir cəhddir.

[3] Rafael Hüseynov. Millətin zərrəsi. Bakı: "Azərbaycan", 2001. "Yaxşıların yaxşısı" məqaləsi, ss. 220-242.

[4] Nəsiman Yaqublu. Azərbaycan Parlamentinin sədr müavini – Həsən bəy Ağayev. – "525-ci qəzet", 31 may 2008-ci il, s. 23



# MİRZƏBALA MƏHƏMMƏDZADƏ NƏ YAZIB?

“Azəri Türk” dərgisinin ən fəal yazarlarından biri olan Mirzəbala Məhəmmədzadənin 1928-ci ildə orada dərc etdirdiyi “Doktor Həsən bəy” adlı məqaləsi bu böyük şəxsiyyət haqqında indiyədək yazılmış ən qiymətli əsərdir və onun qiyməti, haqqında danışdığı kişinin şəxsiyyətini doğru-düzgün dəyərləndirə, incələyə bilməsindədir. İndiyədək araşdırıcılarımızın diqqətindən tam yayınmış bu məqalənin öncə yalnız müəyyən hissələrini oxuculara təqdim etmək istədik, ancaq yazını qısaltmağa başladıqda aciz qaldıq – heç bir cümləni atmağa əlimiz getmədi. Beləliklə, həmin məqaləni aşağıda bütöv şəkildə, ancaq dilini bir qədər müasirləşdirməklə verməli olduq. M.Məhəmmədzadə ürəyinin bütün sevgisinin hopduğu bu yazıda oxuyuruq:

“Səkkiz il bundan əvvəl, 1920-ci ilin 20 iyulundaTiflisdə məşhur “Kazyonnı teatro”sunun yan küçələrindən birində bir şəxsin ölüsü tapılmışdı. Bu, əvvəlki gecə erməni terroristləri tərəfindən faciəli bir surətdə qətl edilən, Azərbaycan Parlamentinin ikinci rəisi doktor Həsən bəy idi. Xain bir güllənin qurbanı olan Həsən bəy Tiflisdə Azərbaycanı təmsilən bulunurdu. Qəhrəman Azərbaycan Ordusunun

parlaq qələbəsiylə nəticələnən məşhur Əsgəran – Qarabağ müharibəsi nəticəsində Tiflisdə açılan Azərbaycan – Ermənistan konqresinə səlahiyyətli nümayəndə sifətiylə gələn Həsən bəy Əsgəran, Qarabağ, Zəngəzur tərəflərində tökülən məsum azərbaycanlıların qanını məğlub düşməndən almaq və Ermənistan daxilində Türklər üzərində rəva görülən rəzalətlərə bir nəhayət qoyulması haqqında qəti bir qaranti alaraq dönmək kimi müqəddəs vəzifələrin ifasıyla məşğul ikən paytaxtımız alınmış, Azərbaycan digər zalım və vəhşi bir düşmənin istilasına məruz qalmışdı.[5] Həsən bəy bu hadisədən sonra Tiflisə sığınan Azərbaycan dövlət adamlarıyla birləşərək istiqlal və qurtuluş davasını davam etdirirdi. Bir ay əvvəl, iyunun 19-da Fətəli xanın[6] qətli və ədliyyə naziri Xəlil bəyin[7] yaralanması üzərinə milli istiqlal mücadiləsini sövq və idarə etmək kimi məsuliyyətli və tarixi bir hərəkəti öhdəsinə götürdüyü bir zamanda xain düşmənin xain gülləsiylə həyatına son verilən Həsən bəy bütün Azərbaycan milliyyətpərvərləri üçün yerinin doldurulması mümkün olmayan böyük bir itki oldu.

Həsən bəy Moskva Darülfünununun tibb fakültəsindən məzun, Azərbaycanın milli hərəkatında yaxından iştirak edən əski ictimai

[5] Ancaq R.Hüseynov çıxılmaqla sonrakı müəlliflərin, demək olar ki, hamısı yanılaraq H.b.Ağayevin Tiflisə 28 aprel işğalından sonra Bakıdan getdiyini yazır.
[6] Fətəli xan Xoyskinin.
[7] Xəlil bəy Xasməhəmmədovun.

xadim idi. Mərhumun tibbi profilaktikaya aid xalqın anlaya biləcəyi bir tərzdə yazılmış türkcə əsərləri olduğu kimi, mübahisəti-siyasiyyəyə aid risalələri və Azərbaycan mətbuatında məqalələri də vardır.

Azərbaycan Cümhuriyyətinin təşkilindən daha əvvəl millətə xidmətləriylə tay-tuşlarından seçilmiş bir sima olan Həsən bəy Rusiya inqilabından[8] sonra "Türk Federalist Müsavat Xalq Firqəsi" sıralarında istiqlal və cümhuriyyət uğrunda gedən mücadiləni sövq edən liderlərdən biri olmuşdur. İstiqlalın qazanılmasında və cümhuriyyətin təşkilində Həsən bəyin xidməti çox böyükdür. Xüsusən onun adıyla Azərbaycan parlamentarizmi sıx surətdə bağlanmaqdadır.

Azərbaycanın istiqlal dövrü tarixində Azərbaycan Parlamentinin özünə məxsus bir rolu vardır. 1918-ci ilin iyununda Gəncədə irticanın təzyiqi altında tətil edən Milli Şura Türkiyə Ordusu Qafqazı boşaltdığına görə ingilis və rus işğal ordularının Bakıya girdikləri zaman çox əlverişsiz bir şərait içərisində Parlament şəklində yenidən təşəkkül edirdi. İçərisində türklərdən başqa erməni və ruslar da olan, yəhudi, gürcü və alman kimi milli azlıq nümayəndələrinə də malik olan Azərbaycan Parlamenti əski Rusiyanın ayrılmaz bir hissəsi kimi Müttəfiqlərin istila etdiyi məmləkəti idarə edərək onun

[8] 1917-ci il Fevral inqilabı nəzərdə tutulur.

istiqlalını qazanacaq və demokraya, cümhuriyyət əsasları üzərinə yeni bir həyat quracaqdı.

Belə bir şərait içərisində təşəkkül edən Azərbaycan Parlamentinin rəisi Əlimərdan bəy Topçubaşı idi. Fəqət Əlimərdan bəy vəzifə ilə Avropada olduğundan, sədrlik vəzifəsini faktik olaraq üzərinə götürən Həsən bəy idi. 17-18 aylıq fəaliyyətində Azərbaycan Parlamenti yalnız qanunverici bir müəssisə rolunu oynamadı. Qanunvericilik, icra və nəzarət gücünü özündə toplayan və prezidentə malik olmayan bir məmləkətdə Azərbaycan Parlamentinin və onu felən idarə edən mərhum Həsən bəyin nə kimi böyük bir vəzifə ilə görəvləndiyi göz önündədir. Azərbaycanın istila altında bulunduğu, orduya, polis qüvvəsinə, müntəzəm dövlət aparatına malik olmadığı bir zamanda anarxiyadan yeni qurtaran bir məmləkətdə icrayi-fəaliyyətə başlayan Azərbaycan Parlamentinin qarşısında yuxarıda adı çəkilən məsələlərdən başqa, ingilis-rus istilasını aradan qaldırmaq və Azərbaycanın dünyada tanınmasını təmin etmək kimi bir vəzifə dururdu. Bütün bu çətin məsələlərin həlli, daxilindəki birlik və həmrəylik sayəsində əldə edilə bilərdi. Azərbaycan Parlamentində olan mühafizəkar, demokrat, sosialist türk siyasi firqələri ilə çoxlu sair qrup və cərəyanları qeyri-Türk firqə və nümayəndələri bir arada, birləşərək idarə etmək üçün Həsən bəy nə qədər səy və

qeyrət sərf etməliydi... O, bütün bu vəzifələri müvəffəqiyyətlə ifa etdi. Nə qədər xoşbəxtlikdir ki, Həsən bəy daha həyatda ikən Parlament kimi ən ali bir qurum başında durduğu zaman Azərbaycan istiladan qurtarmış və dövlətlər tərəfindən tanınmışdı. Əlavə olaraq, hərb-zərb görmüş və müntəzəm müasir bir əsgəri qüvvətə malik qonşusunu məğlub edəcək gənc və qəhrəman bir orduya malik olduğumuzu da görürdü. Məmləkətində müntəzəm bir zabitə, polis kadrosu, ədliyyə müəssisəsi mövcuddu. Asayiş və əmniyyət hökm sürürdü. Azərbaycan hökumətinin darülfünun təsisini dünyanın ən böyük dövlətləri təbrik edirdi. Bolşevik-daşnak anarxiyası üzündən bərbad olan iqtisadi həyat yoluna girmiş, dəmiryolları tənzim edilmiş, müntəzəm və müasir bir cümhuriyyətin demokratik bir həyatı başlanmışdı.

Neçə dəfə istefa verən kabinələrin təşkili Həsən bəyə həvalə edilirkən, bu məmləkətin Parlamentsiz tətbiq edilmədiyini görürkən millət prezident olmadan belə necə məsud və hürr yaşaya biləcəyini dərk edir, Parlamentin qüvvət və əzəmətini gündən-günə bir az daha çox dəyərləndirməyə başlayırdı.

Bu, bir tərəfdən, istiqlalını qazanmış bir millətin demokratik bir həyat və təşkilat qurması və bu surətlə çağırılması üçün hazırlığına başlanılmış olan Məclisi-Müəssisana hazır və müəyyən bir idarə şəkli

projesiylə getməsi deməkdi. Digər tərəfdən də, Məclisi-Müəssisana keçiriləcək seçkilərin də millətin mütləq cümhuriyyət, demokratiya istəklərini təmsil və tərvic edən firqələrə etimad edərək səs verməsini təmin edən tərbiyəvi bir əhəmiyyəti var. Və belə bir hərəkəti, hazırlıq və tərbiyəni idarə edən Parlamentin feli rəisi doktor Həsən bəy idi. Milli intibah və hərəkətin inkişafında, istiqlal fikrinin təsis və elanında cümhuriyyət və demokratiya fikirlərinin elan və tətbiqində, Şərq aləmində ilk hadisə olan cümhuriyyət və demokratiya quruluşunda felən iştirak edən Həsən bəy mərhum bu günün mübariz Azərbaycan gəncliyi tərəfindən fövqəladə idealizə edildiyi bir nöqteyi-nəzərindəndir ki, çox təbii bir hərəkətdir. Həsən bəyin şəxsində Azərbaycan gəncliyi Azərbaycan parlamentarizminin, Azərbaycan demokratizminin təmsilçisini, rəhbər və qurucusunu itirmişdir. Və bu günün, istiqlal və cümhuriyyət hərəkəti liderlərinin idarəsiylə mücadilə edən Azərbaycan gəncliyi sabahın dövlət həyatını düşünərkən necə Fətəli xanın fəaliyyətindən ilham almaq istəyirsə dövlətin ən böyük və ən ali qanunverici, kontrol edici və həyat yaradıcı müəssisəsi olan Parlament və bu Parlament sayəsində qurulacaq demokratik cümhuriyyət həyatı üçün də Həsən bəy mərhumun buraxdığı müqəddəs xatirələrdən ilham almaqdadır.

Həsən bəy Azərbaycan milliyyətpərvərləri içərisində unudulmaz, unudulmayacaq və daima yaşayacaq müqəddəs bir xatirə buraxmışdır. Və Həsən bəyin vəfatının səkkizinci ildönümünü düşünürkən çox təbii olaraq biz onu daim aramızda yaşadan o müqəddəs xatirələri də düşünürük. Çünki Həsən bəy o müqəddəs prinsiplər üçün yaşadı və yenə o müqəddəs istiqlal və demokratiya prinsiplərinin yenidən təhqiqidir ki, Həsən bəyin intiqamını təşkil edəcəkdir. Onun idealı millətin hakimiyyət azadlığı sayəsində məsud olması idi.

Millətimizin hürr və hakim olması, şübhə yoxdur ki, Həsən bəyin ruhunu sevindirəcəkdir.

Mirzəbala".[9]

Göründüyü kimi, məqalə Həsən bəyin vəfatının 8 illiyi münasibətilə qələmə alınsa da nəticə baxımından onun ölümsüzlüyünə həsr edilmiş oldu.

[9] Mirzəbala. Doktor Həsən bəy. – "Azəri Türk", 1 ağustos 1928, № 13, ss. 1-3.